ŞƏMSƏDDİN HACIYEV
ƏVƏZ BAYRAMOV

BEYNƏLXALQ İQTİSADİYYAT

BAKI - 2005

MUHASIBAT.AZ

ŞƏMSƏDDİN HACIYEV
ƏVƏZ BAYRAMOV

BEYNƏLXALQ İQTİSADİYYAT

(Metodiki göstərişlər)

Azərbaycan Respublikası Təhsil Nazirliyinin 271 saylı 21.04.99-cu il tarixli əmrinə əsasən çap edilir.

BAKI - 2005

MUHASIBAT.AZ

AZƏRBAYC AN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ
AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ

Rəyçilər: **Teymur Vəliyev**, Azərbaycan MEA -nın müxbir üzvü, i.e.d., professor

Müzəffər Məmmədov, AzDİU - nun «BİM və marketinq» kafedrasının dosenti

Elmi redaktor: **Şəmsəddin Hacıyev**, i.e.d., professor

© «İqtisad Universiteti» nəşriyyatı - 2005

MUHASIBAT.AZ

GİRİŞ

Qlobal qarşılıqlı asılılığın getdikcə güclənməsi, ümumdünya səviyyəsində bütövləşmənin və vahidləşmənin böyük sürətlə getməsi öz mahiyyəti etibarı ilə mürəkkəb, çoxlaylı və çoxşaxəli bir fenomenin-beynəlxalq iqtisadiyyatın formalaşmasına gətirib çıxardı. Beynəlmiləl səviyyədə sistemli yaranış səciyyəsi daşıyan beynəlxalq iqtisadiyyatın hərtərəfli və dərindən öyrənilməsi ümummilli mənafelərin daha tam və dolğun ödənilməsi zəruriliyi baxımından müasir dövrün ən aktual problemləri sırasındadır. Milli sosial-iqtisadi tərəqqinin xarici aspektlərinin öncül mövqelərə çıxması və bütün bunların nəticəsi kimi dövlət qurumlarının vəzifə və funksiyalarında baş verən keyfiyyət dəyişiklikləri qarşılıqlı əlaqələrdə mikrosəviyyənin rolunu və əhəmiyyətini görünməmiş dərəcədə yüksəltmişdir. Belə olan təqdirdə əsas məqsədin məcmu dünya iqtisadi potensialından səmərəli istifadə probleminin üzərinə düşdüyü şübhəsizdir.

Dünya iqtisadiyyatına optimal qovuşma keçid iqtisadiyyatlı ölkələrin, o cümlədən Azərbaycan Respublikasının qarşısında duran ən vacib məsələlərdən biridir.

Beynəlxalq iqtisadi əlaqələrin sabitqədəmli inkişafı milli iqtisadiyyatda stabilləşdirici rol oynamaq iqtidarındadır.

Eyni zamanda, milli və regional iqtisadi yeniləşmə probleminin həlli də dünya təcrübəsi bazasında həyata keçirilə bilər.

Bütün bunlar beynəlxalq iqtisadiyyatın ödənilməsinə olan marağı şərtləndirən əsas səbəblər kimi nəzərdən keçirilməlidir.

Təqdim etdiyimiz metodiki göstərişlər «Beynəlxalq iqtisadiyyat» fənninin müasir tələblərə uyğun şəkildə tədrisinin həyata keçirilməsi zərurəti ilə bağlıdır. Ümid edirik ki, qeyd edilən aspektdə tədrisin təşkili və onun elmi səviyyəsinin yüksəldilməsində sözügedən metodiki göstərişlərin müəyyən rolu olacaqdır.

Müəlliflər

MUHASIBAT.AZ

Mövzu I

BEYNƏLXALQ İQTİSADİYYAT: MAHİYYƏTİ, FORMALAŞMASI VƏ İNKİŞAF QANUNAUYĞUNLUQLARI

1. «Beynəlxalq iqtisadiyyat» anlayışı.
2. «Beynəlxalq iqtisadiyyat» fənninin predmeti və vəzifələri.
3. «Beynəlxalq iqtisadiyyat»ın genezisi.
4. «Beynəlxalq iqtisadiyyat»ın metodologiyası.
5. «Beynəlxalq iqtisadiyyat»ın strukturu.
6. «Beynəlxalq iqtisadiyyat»ın inkişaf qanunauyğunluqları və xüsusiyyətləri.

1. «Beynəlxalq iqtisadiyyat» (Bİ) anlayışı

Əsas anlayışlar:

- Xarici iqtisadi fəaliyyət: Milli sərhədlərdən kənara çıxan iqtisadi fəaliyyət;
- Milli iqtisadiyyat: Ayrıca götürülmüş bir ölkənin iqtisadiyyatı;
- Milli ixrac potensialı: Xarici iqtisadi əlaqələrdə istifadə olunan yaxud istifadə edilməsi mümkün olan təbii, istehsal, elmi-texniki, əmək və maliyyə resurslarının məcmusu;
- Milli iqtisadiyyatlar arasında iqtisadi əlaqə: Beynəlxalq iqtisadi münasibətlər (BİM).

Hal-hazırda dünyada 209 müstəqil dövlət vardır. Bunlardan 185-i BMT-nin, 190-ı Dünya Bankının üzvləridirlər.

MUHASIBAT.AZ



Şəkil 1. Bİ-ın sxemi

A, B, C, Ç – milli iqtisadiyyatlar;
K, L, M, N – milli ixrac potensialı;
1, 2, 3, 4, 6- Mİ-lərın iqtisadi əlaqələri (İƏ).

İqtisadi ədəbiyyatda Bİ-ə yanaşmalarda müxtəliflik və pərakəndəlik hökm sürməkdədir.

Eyniyyətlər

1) **Bİ = Dİ**
2) **Dİ=Σ Mİ+İƏ**
3) **Dİ=Σ Mİ**
4) **Bİ=Dİ=BİM**

MUHASIBAT.AZ

Beynəlxalq iqtisadiyyat:
-Mürəkkəb və çoxlaylı sistemli yaranışdır;
-Milli və beynəlxalq səviyyələrdə fəaliyyət göstərən iqtisadi münasibətlər sistemidir.

2. «Beynəlxalq iqtisadiyyat» fənninin predmeti və vəzifələri



Şəkil 2. Bİ-n predmeti

MUHASIBAT.AZ

Vəzifələri:

1. Bİ-n inkişaf prosesini səciyyələndirən nəzəri müddəaların öyrənilməsi.
2. Bİ-n praktiki funksiyasının öyrənilməsi.
3. Bİ-n tənzimlənməsi probleminin öyrənilməsi.

3. «Beynəlxalq iqtisadiyyat» genezisi

Bİ-n inkişafı tarixinə ikili baxış:

1. Sosial-iqtisadi formasiya;
2. Sivilizasiya.

Şəkil 3. Ümumbəşəri iqtisadi inkişafa əks-mövqelərdən baxış

MUHASIBAT.AZ



Şəkil 4. Beynəlxalq iqtisadiyyatın genezisi

4. «Beynəlxalq iqtisadiyyat»ın metodologiyası

Metodologiya: Yeni paradiqma problemi.

Falsifikasionalizm

Əsas nəzəri baxışlar:

1. Neoklassik məktəb;
2. Yenikeynçi məktəb;
3. Rasional gözləmələr məktəbi.

MUHASIBAT.AZ

Bİ təhlili metodları

1. Sistem metodu



Şəkil 5. Bİ-in təhlilində istifadə edilən sistem metodunun sxemi

A, B, C, Ç -sistemin elementləri;
N – onun nüvəsi.

a) **Sistemli – struktur yanaşma:** Sistemdaxili ayrı-ayrı struktur elementlərinin ayrılması;

b) **Sistemli – funksional yanaşma:** Hər bir struktur elementinin funksiyasının öyrənilməsi;

c) **Sistemli – genetik yanaşma:** İqtisadiyyatın nüvəsinin müəyyənləşdirilməsi və təhlili, onun təsirinin struktur elementlərinə yönəldilməsi;

ç) **Sistemli – inteqrativ yanaşma:** Sistemin struktur elementlərinin qarşılıqlı əlaqəsinin öyrənilməsi, eləcə də Bİ-bütöv sistem kimi ümumi inkişaf xüsusiyyətlərinin təhlili və müəyyənləşdirilməsi;

MUHASIBAT.AZ

2) **Dialektik metod:** Bİ-daxili dialektik ziddiyyətlərinin araşdırılması və onun həlli yollarının axtarılması;

3) **İqtisadi təhlil metodu:** İqtisadi qanunlardan istifadə və onların fəaliyyət mexanizminin nəzəri və empirik təhlili, Sözügedən iqtisadi hadisənin inkişaf xüsusiyyətlərinin araşdırılması;

4) **Statistik metod:** Bİ-nı xarakterizə edən faktiki materialların ümumiləşdirilməsi və təhlili;

5) **İqtisadi-riyazi metod:** Bİ-n təhlilində riyazi metodlardan istifadə;

6) **İqtisadi modelləşdirmə metodu:** Bİ-ın inkişaf modelləri və proqram təminının işlənib hazırlanması.

5. «Beynəlxalq iqtisadiyyat»ın strukturu

Bİ-da struktur dəyişikliklər

1 – Maddi sferada istehsalın artımı;

2 - Kənd təsərrüfatı istehsalının xüsusi çəkisinin azalması;

3 – Xidmət sferasının yüksək inkişaf tempi;

4 – Nəqliyyat, informasiya-kommunikasiya sistemində sürətli texniki tərəqqi;

5 – Qeyri-istehsal xarakterili xarici ticarət əməliyyatlarının xüsusi çəkisinin aşağı düşməsi;

MUHASIBAT.AZ

Şəkil 6.

MUHASIBAT.AZ

6 – İnkişaf etməkdə olan ölkələrin aqrar-xammal yönümlüyünün dəyişməsi;

7 – Beynəlxalq dövriyyədə xammalın payının azalması.

6. «Beynəlxalq iqtisadiyyat»ın inkişaf qanunauyğunluqları və xüsusiyyətləri

Beynəlxalq iqtisadiyyatın inkişafına təsir göstərən amillər

1. Elmi-texniki tərəqqi:
2. Təsərrüfat həyatının qloballaşması:
3. Qlobal iqtisadi inkişaf problemləri:
- Qlobal ekoloji problem;
- Qlobal ərzaq problemi;
- Qlobal demoqrafik problem;
- Bəşəriyyətin xammal və enerji daşıyıcıarı ilə təchizatı problemi;
- Dünya okeanının resurslarından və kosmik məkandan istifadə edilməsi problemi;
- Hərb və sülh;
- İnformasiya təminatı problemi.

Bİ-ın ümumi inkişaf xüsusiyyətləri:
1. İnkişafın bütövlüyü;
2. Sistemlilik;
3. Dialektiklik;
4. Əksliklər;
5. İnteqrativ bağlılıq.

Bİ-ın konkret xüsusiyyətləri:
1. Di-da struktur dəyişikliklər;
2. İnkişafın yüksək dinamizmi;
3. İnteqrasiya proseslərinin güclənməsi;

MUHASIBAT.AZ

4. İnkişaf etməkdə olan ölkələrin differensiyasının güclənməsi;

5. İqtisadi inkişafın bazar unifikasiyası.

Bİ-ın əsas inkişaf qanunauyğunluqları:

1. İctimai istehsalın səviyyəsinin yüksəlməsi;

2. Milli iqtisadiyyatların beynəlxalq dövriyyəyə artan sürətlə cəlb edilməsi;

3. Milli iqtisadiyyatların iqtisadi potensiallarının çulğalaşması;

4. Milli iqtisadiyyatlar arasında iqtisadi inkişaf səviyyəsinin yaxınlaşması;

5. Milli təsərrüfatların inkişaf dinamizmi;

6. Beynəlxalq əmək bölgüsünün dərinləşməsi;

7. Dünya bazarının inkişafı;

8. İqtisadi regionalizmin genişlənməsi;

9. Qloballaşma prosesinin sürətlənməsi.

MUHASIBAT.AZ

Mövzu II

İSTEHSAL AMİLLƏRİNİN BEYNƏLXALQ BÖLGÜSÜ

1. İstehsal amilləri anlayışı.
2. Beynəlxalq əmək bölgüsünün mahiyyəti və nəzəri əsasları.
3. Ölkənin beynəlxalq əmək bölgüsündə tutduğu yerin müəyyənləşdirilməsi metodikası.
4. Beynəlxalq əmək bölgüsünün əsas formaları.

1. İstehsal amilləri anlayışı

İstehsal amilləri – məhsul istehsalı üçün zəruri olan resurslar

1. Əmək;
2. Texnologiya;
3. Torpaq;
4. Kapital.

- Dünya ölkələri üzrə iqtisadi resursların qeyri-bərabər bölgüsü

İstehsal amillərinin tipləri	Beynəlxalq mobilliyin dərəcəsi	
	yüksək	aşağı
Əsas		X
İnkişaf etmiş	x	
Ümumi	X	
Xüsusi		x

Şəkil 7. İstehsal amillərinin beynəlxalq mobilliyi.

MUHASIBAT.AZ

2. Beynəlxalq əmək bölgüsünün mahiyyəti və nəzəri əsasları

Beynəlxalq əmək bölgüsünə (BƏB) konseptual baxış:

1) Müqayisəli üstünlüklər;
2) Qarşılıqlı asılılıq;
3) Müasir yanaşma.

Problemin qoyuluşuna ikili yanaşma:

1) Beynəlxalq əmək bölgüsü ictimai əmək bölgüsünün milli sərhədlərdən kənar davamı kimi;

2) Beynəlxalq əmək bölgüsü müstəqil hadisə kimi.

BƏB-ü müəyyənləşdirən amillər:

1. Təbii-coğrafi amillər:

a) Təbii-iqlim şəraiti;
b) Ölkənin təbii resursları;
c) Ölkə ərazisinin mənimsənilməsi;
ç) Əhalinin sayı;
d) Ölkənin iqtisadi-coğrafi mövqeyi.

2. Sosial-iqtisadi amillər:

a) Ölkədə işçi qüvvəsinin sayı;
b) Elmi-texniki potensialın inkişaf səviyyəsi;
c) İstehsalın idarəedilməsinin inkişaf səviyyəsi;
ç) İstehsalın miqyası;
d) İstehsal və sosial infrastruktura;
e) Tarixi inkişaf xüsusiyyətləri və iqtisadi ənənələr;
ə) İstehsalın sosial tipi və xarici iqtisadi əlaqələrin inkişaf istiqamətləri.

3. ETT amilləri:

a) İstehsalın iqtisadi diversifikasiyası səviyyəsi;
b) ETT nöqteyi-nəzərindən müəssisənin optimal ölçüləri;

MUHASIBAT.AZ

c) Müəssisənin fəaliyyətinin iqtisadi səmərəliliyi (kütləvi istehsal mövqeyindən);

ç) Avadanlığın mənəvi aşınmasının güclənməsi tempi;

d) NİOKR – n səviyyəsi.

e) NİOKR-n səviyyəsi.

3. Ölkənin BƏB-də tutduğu yerin müəyyənləşdirilməsi metodikası

№	Göstəricilər
	A qrupu. İdxal-ixrac əməliyyatlarını nəzərə almaqla BƏB-nün inkişaf səviyyəsi.
1	Ölkənin ixrac kvotası onun ÜDM-da;
2	İxracın artım tempinin ÜDM-un artım tempini üstələyən əmsalı;
3	Ölkənin idxal kvotası onun ÜDM-da;
4	İdxalın artım tempinin ÜDM-un artım tempini ustələyən əmsalı;
5	Xarici ticarət kvotası;
	B qrupu. Beynəlxalq regionun ayrı-ayrı ölkələrin xarici iqtisadi əlaqələr sistemində yeri.
6	Ölkənin ixracatının beynəlxalq regionun məcmu ixracında payı;
7	Ölkənin ixracatının artım tempinin beynəlxalq regionun məcmu ixracının artım tempini üstələyən əmsalı;
8	Ölkənin ixracatının beynəlxalq region çərçivəsində ölkələrin qarşılıqlı ixracatında xüsusi çəkisi;
9	Ölkənin ixracının artım tempinin beynəlxalq region çərçivəsində ölkələrin qarşılıqlı ixraclarının artım tempini üstələyən əmsalı.

Şəkil 8. Ölkənin BƏB-də iştirakını xarakterizə edən göstəricilərin təsnifatı

BƏB-də iştirakı müəyyənləşdirən metodiki aparat.

1. Nisbi ixrac ixtisaslaşması əmsalı:

$$K_0 = \frac{Э_0}{Э_m}$$

K_0 –əmsal;

$Э_0$ – Ölkənin ixracatında məhsulun (sahənin məhsulları məcmusunun) xüsusi çəkisi;

MUHASIBAT.AZ

$Э_m$ – Ümumdünya ixracatında məhsulun (analoji məhsulların) xüsusi çəkisi.

2. İxrac kvotası:

$$Э_к = \frac{Э}{ÜDM} \cdot 100;$$

$Э_k$ – ixrac kvotası;
Э – ixrac ;
ÜDM – ümumi daxili məhsul;

3. İdxal kvotası:

$$İ_к = \frac{İ}{ÜDM} \cdot 100;$$

$İ_k$ – idxal kvotası;
İ – idxal.

4. Xarici ticarət kvotası:

$$XT_к = \frac{XT}{ÜDM} \cdot 100;$$

XT_k – xarici ticarət kvotası;
XT – xarici ticarət dövriyyəsi;

BƏB-in əsas formaları:
1. Beynəlxalq kooperasiya;
2. Beynəlxalq ixtisaslaşma.

Beynəlxalq ixtisaslaşma iki istiqamətdə gedir:
1.İstehsal:
a) Sahələrarası;
b) Sahədaxili;

MUHASIBAT.AZ

c) Müəssisə.
2. Ərazi:
a) Ölkə;
b) Ölkələr qrupu;
c) Region.
Beynəlxalq ixtisaslaşmanın əsas növləri:
1.Predmet (məsul).
2.Detal (məmulatın hissələri);
3.Texnoloji.
- Beynəlxalq ixtisaslaşan məhsul;
- Beynəlxalq ixtisaslaşan sahə.

- Beynəlxalq kooperasiya

Təsnifat prinsipləri	Kooperasiyanın xarakteri
1.Növlərinə görə	İqtisadi kooperasiya, sənaye əməkdaşlığı, istehsal, elmi-texniki kooperasiya və s.
2.Mərhələlərinə görə	İstehsaldan əvvəl, istehsal, kommersiya;
3.İstifadə metodlarına görə	Birgə proqramlar, müqavilə üzrə ixtisaslaşma, birgə müəssisələr;
4.Əlaqələrin strukturuna görə	Daxili və firmalararası, sahədaxili və sahələrarası, üfiqi, şaquli, qarışıq;
5.Ərazi əhatəsinə görə	İki və daha çox ölkələrarası, region çərçivəsində, regionlararası, ümumdünya;
6.Subyektlərin sayına görə	İki və çox tərəfli;
7.Obyektlərin sayına görə	Bir və çox predmetli.

Şəkil 9. Beynəlxalq kooperasiyanın təsnifatı

MUHASIBAT.AZ

Mövzu III

BEYNƏLXALQ İQTİSADİYYATIN STRUKTUR ELEMENTLƏRİ

1.Beynəlxalq iqtisadiyyatın struktur müəyyənləşdirilməsi problemi.
2.Real sektorla xarici sektor arasında əlaqə.
3.Pul sektoru ilə xarici sektor arasında əlaqə.
4.Büdcə sektoru ilə xarici sektor arasında əlaqə.
5.Sektorlararası əlaqənin genişləndirilmiş forması.

1.Beynəlxalq iqtisadiyyatın struktur müəyyənləşdirilməsi problemi

1. Sistemli yanaşma konsepsiyası

1.Milli kapitalist təsərrüfatı;
2.Dünya kapitalist təsərrüfatı;
3.Milli sosialist təsərrüfatı;
4.Dünya sosialist təsərrüfatı.



Şəkil 10.

2.Üç dünya konsepsiyası
1 – Kapitalist dünyası;
2 – Sosialist dünyası;
3 – İnkişaf etməkdə olan ölkələr



Şəkil 11.

MUHASIBAT.AZ

3. Mərkəz və əyalət konsepsiyası

Mərkəz – Yüksək inkişaf etmiş ölkələr;
Əyalət – İnkişaf etməkdə olan ölkələr.



Şəkil 12.

4. Siyasi əksliklər konsepsiyası

İki növünü fərqləndirirlər:
Birinci növ – Şərq və Qərb bölümü;
1 – Şərq ölkələri;
2 – Qərb ölkələri.



Şəkil 13.

İkinci növ - Şimal və Cənub bölümü;
1- İnkişaf etmiş Şimal ölkələri;
2- İnkişaf etmiş Cənub ölkələri.



Şəkil 14.

Bİ-n struktur sistemləşdirilməsinin əsas prinsipləri



Şəkil 15.

1.İqtisadi. İki səviyyəsi var.
Dünya ölkələrinin strukturuna görə:

1 – Sənayecə inkişaf etmiş ölkələr (ÜDM-un 50%-dən çoxu sənaye istehsalının payına düşür).

2 –Aqrar ölkələr (ÜDM-un 50%-dən çoxu kənd təsərrüfatı istehsalının payına düşür),

MUHASIBAT.AZ

3 –Sənaye-aqrar ölkələr (sənaye və kənd təsərrüfatı üzrə ümumi istehsalda sənayenin xüsusi çəkisi 50%-dən yüksəkdir).

4 – Aqrar sənaye ölkələr (sənaye və kənd təsərrüfatı üzrə ümumi istehsalda kənd təsərrüfatının xüsusi çəkisi 50%-dən yüksəkdir).

2.İqtisadi inkişaf səviyyəsi üzrə

1.İqtisadi cəhətdən inkişaf etmiş ölkələr;
2. Yeni sənaye ölkələri;
3. İnkişaf etməkdə olan ölkələr.



Şəkil 16.

3.Bazarın inkişaf dərəcəsi üzrə

1 – İnkişaf etmiş bazar iqtisadiyyatlı ölkələr;
2 – Bazar iqtisadiyyatlı ölkələr;
3 – Keçid iqtisadiyyatlı ölkələr;
4 – İnzibati –amirlik sistemli ölkələr



Şəkil 17.

4.Təşkilati prinsip

1 – Avropa İttifaqı (Aİ);
2 – MDB;
3 – Avropa azad ticarət assosiasiyası**;**
4 – Latın Amerikası azad ticarət assosiasiyası;
5 - NAFTA (Şimali Amerika azad ticarət assosiasiyası)



Şəkil 18.

MUHASIBAT.AZ

6 – OESR – İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı;
7 – OPEK – (neft ixrac edən ölkələr təşkilatı);
8 – Qara dəniz iqtisadi əməkdaşlıq şurası.

5.Sosial-iqtisadi prinsip

1.Sivilizasiyanın inkişaf səviyyəsinə görə
1 – Elm dövrünün ölkələri;
2 – Texnologiya dövrünün ölkələri;
3 – İstehsal dövrünün ölkələri.



Şəkil 19.

2. Dövlətin sosial təşkilinə görə
1 – Kapitalist ölkələri;
2 – Etatizm (İran, Liviya);
3 – Sosialist ölkələri.



Şəkil 20.

6.Orta illik gəlirlərin adambaşına düşən səviyyəsinə görə

1. — 11 min dollardan çox (İsveç, Norves, Avstriya, BƏƏ, Bruney, İsveçrə);
2. —11 min dollara qədər (ABŞ, AFR, İtaliya, Fransa);
3. —7 min dollara qədər (YSÖ);
4. —2 min dollara qədər (inkişaf etməkdə olan ölkələr);
5. —700 dollara qədər (ən yoxsul və keçid iqtisadiyyatlı ölkələr).



Şəkil 21.

MUHASIBAT.AZ

7. Regional yanaşma prinsipi

1 – Avropa;
2 – Asiya;
3 – Şimali Amerika;
4 – Avstriya;
5 – Latın Amerikası;
6 – Afrika.



Şəkil 22.

8. Regional- iqtisadi prinsip

1 – Qərbi Avropa;
2 – Şərqi Avropa;
3 – Mərkəzi Avropa;
4 – Yaxın Şərq;
5 – Orta Şərq;
6 – Uzaq Şərq.



Şəkil 23.

2. Real sektorla xarici sektor arasında əlaqə

Ü+IM=S+I+X

Ü – Buraxılışın həcmi / gəlirlərin səviyyəsi;
IM – mal və qeyri-faktor xidmətlərinin idxalı;
S – İstehlak;
I – Daxili investisiyalar;
X – Mal və qeyri-faktor xidmətlərinin ixracı.
a) Ümumdaxili məhsul (ÜDM)

ÜDM=(S+I)+(X-IM)

MUHASIBAT.AZ

b) Məcmu milli məhsul (MMM)

$$MMM=ÜDM+XFG=(S+I)+(X-IM+XFG)$$

XFG – Xalis faktor gəliri;

$$XFG=İGF+BKF+RMF$$

İGF – investisiya fəaliyyəti üzrə gəlirlər arasındakı fərq;
BKF – Bank köçürmələri arasındakı fərq;
RMF – Rentanın məbləği arasındakı fərq.
c) Məcmu Milli gəlirlər (MMG)

$$MMG=MMM+XT=(S+I)+(X-LM+XFG+XT)$$

XT – xalis transfertlər
ç) Tədiyə balansının cari əməliyyatlarının saldosu (BTCS)

$$TBCS+X-LM+XFG+XT$$

2) Absorbsiya (A) – rezidentlərin (o cümlədən hökumətin) yerli və xarici mal və xidmətlərə sərf etdikləri məsrəflər.
Yəni:

$$A=S+I$$

3) Yığım (Y)

$$Y=MMG-S$$

yaxud,

$$Y=ÜDM-S$$

TBCS=Y-A

TBCS=Y-I

MUHASIBAT.AZ

3. Pul sektoru ilə xarici sektor arasındakı əlaqə

$$P=XXA+XDA$$

P – pul;
XXA – xalis xarici aktivlər;
XDA – xalis daxili aktivlər;

$$XXA=MBBE+KBBE$$

MBBE – mərkəzi bankın xalis beynəlxalq ehtiyatları;
KBEE – kommersiya banklarının xalis beynəlxalq ehtiyatları.

Pul sektorunun xarici aktivləri (ehtiyatları) – tədiyə balansının cari kəsiri kimi təzahür edən real sektorun defisitinin maliyyələşdirilməsində əsas mənbədir.

$$\Delta XE=TBCS+\Delta KM$$

XE – xalis ehtiyatlar;
KM – kapitalın miqrasiyası (ehtiyatlardan kənar);
Δ - vaxt vahidi ərzində göstəricinin dəyişməsi;

$$\Delta XE=Y-A+\Delta KM$$

4. Büdcə sektoru ilə xarici sektor arasında əlaqə

$$BG+M=BX$$

BG – büdcə gəlirləri;
M – maliyyələşmə;
BX – büdcə xərcləri;

MUHASIBAT.AZ

M=DM+XM

DM – daxili mənbələr hesabına maliyyələşmə;
XM – xarici mənbələr hesabına maliyyələşmə.

5. Sektorlararası əlaqənin genişləndirilmiş forması

TBCS=(ETY-ETİ)+(MY-Mİ)+HY-Hİ)

ETY – ev təsərrüfatlarının yığımı;
ETİ – ev təsərrüfatlarının investisiyası;
MY – müəssisələrin yığımı;
Mİ – müəssisələrin investisiyası;
HY – hökumətin yığımı;
Hİ – hökumətin investisiyası.

	Xarici sektor		
I.Real sektor	1	2	(1-2)
	İxrac (X)	İdxal (MI)	Saldo (X-MI)
	rezidentlərin faktor gəlirləri	qeyri-rezidentlərə faktor gəlirlərinin ödənilməsi	xalis gəlir (XG)
	xaricdən pul alınması	pulun xaricə köçürülməsi	xalis transfertlər(XT)
II.Pul sektoru	ümumdövlət valyuta ehtiyatları	cari xarici öhdəliklər	xalis dövlət ehtiyatları (XZ)
	kapital idxalı	kapital ixracı	xalis kapital axını (XK)
III.Büdcə sektoru	yeni dövlətlərarası kreditlər	xarici borcun əsas hissəsinin ödənilməsi	büdcənin xalis xarici maliyyələşməsi (M)

Şəkil 24. Sektorlararası qarşılıqlı əlaqə.

MUHASIBAT.AZ

Mövzu IV
BEYNƏLXALQ TİCARƏT VƏ TİCARƏT SİYASƏTİ

Mövzu IV.I.
BEYNƏLXALQ TİCARƏTİN NƏZƏRİ ƏSASLARI

1.Merkantilizm.
2.Mütləq və müqayisəli üstünlüklər konsepsiyası.
3.İstehsal amillərinin nisbəti nəzəriyyəsi.
4.Beynəlxalq ticarətin standart modelləri.
5.Xarici ticarətin alternativ nəzəriyyələri.

1.Merkantilizm

-İlkin və son merkantilizm.

Çıxış nöqtəsi	I ölkə	II ölkə
	X>IM	X<IM
1-ci mərhələ	xalis qızıl idxalı	xalis qızıl ixracı
2-ci mərhələ	pul kütləsinin artımı	pul kütləsinin azalması
3-cü mərhələ	qiymət və əməkhaqqının yüksəlməsi	qiymət və əməkhaqqının aşağı düşməsi
4-cü mərhələ	idxalın artımı, ixracın azalması	idxalın azalması, ixracın artımı
Nəticə	X=IM	X=IM

Şəkil 25. «Qiymətlər-qızıl-axınlar» modeli.

MUHASIBAT.AZ

2.Mütləq və müqayisəli üstünlüklər konsepsiyası

a) Mütləq üstünlüklər prinsipi:

$$A_iQ_i+A_jQ_j \leq L$$

A_i – i- məhsulunun istehsalına sərf edilən vaxt vahidi;
A_i – j- məhsulunun istehsalına sərf edilən vaxt vahidi;
Q_i – i – məhsulunun istehsal həcmi;
Q_i – j – məhsulunun istehsal həcmi;
L – ölkənin əmək resursları.

b) Müqayisəli üstünlüklər prinsipi:

Alternativ dəyər

$$\frac{A_i}{A_j} \langle \frac{A^1{}_i}{A^1{}_j}$$

yaxud

$$\frac{A_i}{A_j} \langle \frac{A_{\ i}}{A_{\ j}}$$

1) Qarşılıqlı tələb nəzəriyyəsi

Yanaşmalar:

a) $\frac{P_i}{P_j} \langle \frac{A_{\ i}}{A_{\ j}}$

b) $\frac{L_i}{A_j} : \frac{L^1}{A^1{}_j}$

c) $\frac{P_i}{P_j} = \frac{A_{\ i}}{A_{\ j}}$

ç) $\frac{P_i}{P_j} \rangle \frac{A^1{}_i}{A^1{}_j}$

MUHASIBAT.AZ

d) $\frac{P_i}{P_j} \langle \frac{A^1{}_i}{A^1{}_j}$

e) $\frac{P_i}{P_j} = \frac{A^1{}_i}{A^1{}_j}$

P – qiymət.

- Xarici ticarət uduşu:

$$\frac{1}{A_i} \cdot \frac{P_i}{P_j} \rangle \frac{1}{A_j}$$

$$\frac{P_i}{P_j} \rangle \frac{A_i}{A_j}$$

3.İstehsal amillərinin nisbi nəzəriyyəsi

Xekşer-Olin teoremi

a) Amil intensivliyi:

$$\frac{K_2}{L_2} \rangle \frac{K_1}{L_1}$$

K-kapital;
L – əmək.
b) Amil bolluğu:

$$\frac{P^1{}_k}{P^1{}_L} \rangle \frac{P_k}{P_L}$$

MUHASIBAT.AZ

P_k – kapitalın qiyməti;
P_L – əməyin dəyəri.

Leontyev statistikası

Ölkədə kapital bolluğu var, əgər:

$$\left(\frac{K}{L}\right)_{im} : \left(\frac{K}{L}\right)_{x} \langle 1$$

Ölkədə əmək bolluğu var, əgər:

$$\left(\frac{K}{L}\right)_{im} : \left(\frac{K}{L}\right)_{x} \rangle 1$$

Leontyev paradoksu

4.Beynəlxalq ticarətin standart modeli

a) İstehsalçı və istehlakçıların davranışı;
1) Əvəzetmə xərclərinin artımı;
2) Transformasiyanın marjinal səviyyəsi;
3) Əvəzetmənin marjinal səviyyəsi.

- Ticarətin yoxluğu şəraitində balans:

$$V=(P_1 \times Q_1) + (P_2 \times Q_2)$$

Və- istehsalın maksimal həcmi.

MUHASIBAT.AZ

	Mütləq üstünlüklər	Müqayisəli üstünlüklər	İstehsal amillərinin nisbəti
İstehsal amillərinə yanaşma			
1.Yeganə amil (əmək)	x	x	
2.İki amil (əmək və kapital)			x
3.İstehsal amilləri tam istifadə olunur	x	x	x
4.Amillərlə təchizatda fərqlilik			x
5.Məhdudluq	x	x	x
6.Ölkədaxili tam mobillik	x	x	x
7.Ölkələrarası natamam mobillik	x	x	x
Bazarın xarakterinə münasibət			
1.İki ölkə	x	x	x
2.İki mal	x	x	x
3.Kamil rəqabət	x	x	x
4.Azad ticarət	x	x	x
5.Ticarət balanslığı	x	x	x
6.Nəqliyyat xərcləri yoxdur	x	x	x
İstehsalın xarakterinə yanaşma			
1.Bir məhsul üzrə tam ixtisaslaşma	x	x	
2.Hər iki ölkədə eyni texnologiya			x
Malın xarakterinə münasibət			
1.Bir məhsul əməktutumlu, o birisi kapital tutumlu			x
2.Əmək-dəyər nəzəriyyəsi	x	x	
3.Qiymət üzrə tələbin tam elastikliyi	x	x	x
Digər nəzəriyyələrə münasibət			
1.Tələb eynidir:	x	x	x
2.Miqyasdan qənaət yoxdur	x	x	x

Şəkil 26. Xarici ticarətin klassik nəzəriyyələri.

MUHASIBAT.AZ

-Ticarətin olduğu şəraitdə balans:

$$V=(P_1xD_1)+(P_2 x D_2)=(P_1 x Q_1)+(P_2 x Q_2)$$

D – istehlak.

- Kiçik və böyük ölkələr arasında ticarət

-

Ümumtarazlıq nəzəriyyəsi

$$D_2-Q_2=(Q_1-D_1)\ x\frac{P_1}{P_2}$$

-Beynəlxalq tarazlıq:

$$Q_1-D_1=D^1_1-Q^1_1,$$
$$D_2-Q_2=Q^1_2-D^1_2,$$

-Beynəlxalq ticarətin təhlili vasitələri;
-Ticarət şəraiti.
1)Xalis barter üzrə ticarət şəraiti.

$$T_0T=\frac{P_x}{P_{im}}$$

T_0T – ticarət şəraiti;
P_x – ixrac qiymətlərinin indeksi;
P_{im} – idxal qiymətlərinin indeksi;
2) Gəlirlilik üzrə ticarət şəraiti:

$$T_0T=\frac{P_x}{P_{im}}\cdot Q_x$$

MUHASIBAT.AZ

Q_x – ixracın fiziki həcm indeksi.

3)Amillər üzrə ticarət şəraiti:

$$T_0T = \frac{P_x}{P_{im}} \cdot \frac{Q_x}{Q_{im}}$$

-İdxalın elastikliyi:

$$E_{im} = \frac{\Delta IM(\%)}{\Delta P(\%)}$$

-İxracın elastikliyi:

$$E_x = \frac{\Delta X(\%)}{\Delta P(\%)}$$

-Qarşılıqlı əlaqə:

$$\mathbf{E_{im} - 1 = E_x}$$

Artımın tipi	Ölkədə	Dünyada
İxrac genişləndirici	Ticarət şəraiti pisləşir	Ticarət şəraiti yaxşılaşır
İdxal əvəzedici	Ticarət şəraiti yaxşılaşır	Ticarət şəraiti pisləşir

Şəkil 27. İqtisadi artımın ticarət şəraitinə təsiri.

- Gəlirlərin yenidən bölgüsünün ticarət şəraitinə təsiri.

Engel effekti – məcmu tələbdə ayrı-ayrı malların xüsusi çəkisini mütləq dəyişməsi;

Engel qanunu – daimi qiymətlər və demoqrafik situasiyanın sabitliyi şəraitində gəlirlərin artımı ilkin tələbat mallarına olan tələbi azaldır, təmtəraq mallarına isə əksinə, artırır.

MUHASIBAT.AZ

5.Xarici ticarətin alternativ nəzəriyyələri

- Qeyri-ənənəvi yanaşmalar.

1) Spesifik istehsal amilləri nəzəriyyəsi.

Spesifik və mobil amillər

İstehsal amilləri	I malı	J malı
1.Əmək (Mobil amil)	$L_ı$	L_j
2.Kapital (spesifik amil –i malı üçün)	K	-
3.Torpaq (spesifik amil –j malı üçün)	-	T

$$Q_i = Q_i (K, L_i);$$
$$Q_j = Q_j (T, L_j);$$
$$L_i + L_j = L$$

- Azalan gəlirlilik qanunu;

- Marjinal əmək məhsuldarlığı (MƏM);

Daxili tarazlıq:

$$MƏM_i \times P_i = W$$
$$MƏM_j \times P_j = W$$

W – əmək haqqı;

- Beynəlxalq balans:

$$D_j - Q_j = \frac{P_i}{P_j} \cdot (Q_i - D_i)$$

MUHASIBAT.AZ

Beynəlxalq ticarətin şərhi	Gəlirlərin bölgüsünün şərhi
I.Mütləq və müqayisəli üstünlüklər nəzəriyyələri	Gəlirlərin bölgüsü probleminə toxunulmur.
II.İstehsal amillərinin nisbəti nəzəriyyəsi	1) Xekşer – Olin teoremi: nisbi artıq amillərin sahibləri udur;
	2) Xekşer – Olin – Samuelson teoremi: malların nisbi qiymətlərinin bərabərləşməsi istehsal amillərinin nisbi qiymətlərini birləşdirir;
III.Spesifik istehsal amilləri nəzəriyyəsi	1) Samuelson – Con teoremi: ixrac sahəsi üçün spesifik olan amilin sahibinin gəlirləri artır, əksinə isə azalır.
	2) Stolper – Samuelson teoremi: mal istehsalında intensiv istifadə edilən amilin (qiyməti daimi artan) sahibinin gəlirləri yüksəlir, əksinə isə, azalır.
	3) Rıbçinski teoremi amillərdən birinə olan təklifin artımı, bu amilin istifadə edildiyi sahədə istehsalın və gəlirin böyük nisbi artımına, digər sahələrdə istehsalın ixtisarına gətirib çıxarır.

Şəkil 28. Ticarət gəlirinin bölgüsü.

Miqyas effekti və qeyri-kamil rəqabət

- Miqyas effekti – istehsalın miqyası genişləndikcə məhsul vahidinin maya dəyəri aşağı düşür.

- ixtisaslaşmanın dərinləşməsi;
- istehsalın diskretliyi;
- texnoloji qənaət;
- miqyasdan əldə edilən qənaət;

MUHASIBAT.AZ

İnhisarçı rəqabət şəraitində ticarət

$$X=S\left[\frac{1}{n}-b\cdot(P-\bar{p})\right]$$

X – firmanın satışı;
S – bütövlükdə sahənin satışı;
n – sahədə firmaların sayı;
b – tələbin dəyişəni (firmanın bazar payının onun mallarına qoyulan qiymətdən asılılığını əks etdirir);
p – firmanın malına qoyulan qiymət;
$\bar{P}$ - rəqabət aparan analoji malların orta qiyməti;

$$-c=\frac{F}{x}+c=n\frac{F}{S}+c$$

- s – orta xərclər;
F – daimi xərclər;
c – firmanın marjinal xərcləri;

$$x=\frac{S}{n}-Sb\bar{p}+S_{bp}=(\frac{S}{n}+Sb\bar{p})-Sb\bar{p}$$

X=A-BP

A – konstant;
B – əmsal.

$$MR=P-\frac{X}{B}=P-\frac{X}{Sb}=c$$

MUHASIBAT.AZ

$$P = c + \frac{X}{Sb}$$

Aliqopolistik rəqabət bazarında tələbin tənliyi:

$$P = c + \frac{1}{bn}$$

- Beynəlxalq ticarətin sahədaxili nəzəriyyəsi

	Sahələrarası ticarət	Sahədaxili ticarət
Ticarət inkişaf edir	Ölkələrarası amil təchizatında fərqlilik varsa	Eyni, yaxud oxşar vəziyyət (amillərlə təchizatda)
Ticarət əks etdirir	İstehsalda ölkələrin müqayisəli üstünlükləri	Malın differensiyasını
Ticarət izah edilir	İstehsal amillərinin nisbəti nəzəriyyəsi	Miqyasdan əldə edilən qənaət nəzəriyyəsi
Ticarət səbəb olur	Nisbi bol istehsal amilləri üzrə gəlirin artımına	Bütün amillər üzrə gəlirin artımına
Öz aralarında ticarət edirlər	Bütün ölkələr	İnkişaf səviyyəsi uyğun gələn ölkələr
Ticarətin obyekti	Hazır məhsullar	Hissə və komponentlər
Ticarət inkişaf edir	İri sahələr arasında	Sahə daxilində
Ticarətin nəticəsi	İşçi qüvvəsinin sahələrarası miqrasiyası ilə bağlı əhəmiyyətli sosial nəticələr	Miniamal sosial nəticələr

Şəkil 29. Sahələrarası və sahədaxili ticarətdə fərqliliklər

Ölkələr	Mallar	Sahələrarası ticarət (homogen mallar)	Sahədaxili ticarət (differensiya edilmiş mallar)
I.Əmək bolluğu olan ölkə	Mal 1 – Əməktutumlu	İxrac	İxrac və idxal
	Mal 2	Idxal	Idxal və ixrac
II.Kapital bolluğu olan ölkə	Mal 1 –	Idxal	Idxal və ixrac
	Mal 2 – kapital tutumlu	İxrac	İdxal və ixrac

Şəkil 30. Sahələrarası və sahədaxili ticarətin qarşılıqlı əlaqəsi.

MUHASIBAT.AZ

Sahədaxili beynəlxalq ticarət:

$$T = 1 - \frac{|X - IM|}{X + IM}$$

T – sahədaxili beynəlxalq ticarət

0<T<1

-Beynəlxalq ticarətdə tələb və revers nəzəriyyəsi

1.Kəsişən tələb nəzəriyyəsi;

2.İstehsal amillərinin reversi nəzəriyyəsi.

Əvəzetmənin elastikliyi:

$$e = \frac{\Delta(K \setminus L) : (K \setminus L)}{\Delta(S) : (S)}$$

-Rəqabət üstünlükləri nəzəriyyəsi.



Şəkil 31. Rəqabətin mərhələləri.

MUHASIBAT.AZ

Mövzu IV.2

MAL VƏ XİDMƏTLƏR ÜZRƏ BEYNƏLXALQ TİCARƏT

1.Beynəlxalq ticarətin iqtisadi mahiyyəti.
2.Mal və xidmətlər üzrə beynəlxalq ticarətin göstəricilər sistemi.
3.Mal və xidmətlər üzrə beynəlxalq ticarətin aparılması formaları və metodları.
4.Xidmətlər üzrə beynəlxalq ticarətin spesifikası.

1.Beynəlxalq ticarətin iqtisadi mahiyyəti

1- Beynəlxalq ticarət münasibətlərinin ən ümumi və ənənəvi forması;



Şəkil 32

2 – Digər formaların meydana çıxması.

Beynəlxalq ticarət münasibətləri-kapital, işçi qüvvəsi, xidmətlər və malların mübadiləsi, alqı-satqısı sferasında dünya iqtisadiyyatının subyektləri arasında formalaşan münasibətlərdir.

- Xarici ticarət: Ayrıca götürülmüş bir ölkənin idxal-ixrac əməliyyatlarının məcmusu;

MUHASIBAT.AZ

- **Beynəlxalq ticarət:** Dövlət qurumları olan milli təsərrüfatlar və onların nümayəndələri arasında mal və xidmətlərin mübadiləsi;

-Dünya ticarəti: Dünya ölkələrinin xarici ticarətlərinin məcmusu;

-Ticarəti aparılan və ticarəti aparılmayan mallar.



Şəkil 33. Malın tipologiyası sxemi.

MUHASIBAT.AZ

2.Mal və xidmətlər üzrə beynəlxalq ticarətin göstəricilər sistemi

-Birinci qrup: Beynəlxalq ticarətin həcm göstəriciləri

1) İxrac – mal və xidmətlərin xarici bazarlarda satışı;

2) İdxal - mal və xidmətlərin xarici bazarlardan satın alınıb ölkəyə gətirilməsi;

3) Xarici ticarət dövriyyəsi - müəyyən dövr ərzində idxal-ixrac əməliyyatlarının məcmusu:

4) Beynəlxalq ticarətin fiziki həcmi – müəyyən dövr ərzində idxal və ixracın daimi qiymətlərlə həcmi;

5) Ümumi ticarət – xarici ticarət dövriyyəsinin və tranzit malların dəyəri;

6) Xüsusi ticarət – xalis xarici ticarət dövriyyəsi;

7) Təkrar ixrac –idxal edilən malın emala məruz qalmadan ixracı;

8) Təkrar idxal – ixrac edilən malın emala məruz qalmadan idxalı.

- İkinci qrup: Beynəlxalq ticarətin struktur kriteriyası üzrə göstəriciləri

1) Mal üzrə – əsas mal pozisiyaları üzrə ixrac və idxalın bölgüsü göstəriciləri;

2) Coğrafi – beynəlxalq ticarətin ölkə qrupları və regionlar üzrə bölgüsü;

3) İnstitusional - beynəlxalq ticarətin subyektlər və mal mübadiləsi metodları üzrə bölgüsü.

-Üçüncü qrup: Beynəlxalq ticarətin dinamikası göstəriciləri:

1) Beynəlxalq ticarətin artım tempi:

- İxracın artım tempi:

MUHASIBAT.AZ

$$T = \frac{Э_0}{Э_1} \cdot 100\%$$

T – artım tempi;
$Э_0$ –hesabat ilində ixracın həcmi;
$Э_1$ –bazis ilində ixracın həcmi;

- İdxalın artım tempi:

$$T = \frac{И_0}{И_1} \cdot 100\%$$

T – artım tempi;
$И_0$ –hesabat ilində idxalın həcmi;
$И_1$ –bazis ilində idxalın həcmi;

-Xarici ticarət dövriyyəsinin artım tempi:

$$T = \frac{XTD_0}{XTD_1} \cdot 100\%$$

T – artım tempi;
XTD_0 –hesabat ilində xarici ticarət dövriyyəsinin həcmi;
XTD_1 –bazis ilində xarici ticarət dövriyyəsinin həcmi.

- Dördüncü qrup: Beynəlxalq ticarətin nəticələrini əks etdirən göstəricilər.

1) Ticarət balansının saldosu;
2) Xidmət balansının saldosu;
3) Qeyri-kommersiya əməliyyatları balansının saldosu;
4) Cari əməliyyatlar balansının saldosu;
5) Adambaşına düşən ixracın həcmi:

$$Э_a = \frac{Э}{\partial hali}$$

MUHASIBAT.AZ

$Э_a$ –ixracın adambaşına düşən həcmi;
Э –ixracın həcmi.
6) Abambaşına düşən idxalın həcmi:

$$И_a = \frac{И}{\partial hali}$$

$И_a$ –idxalın adambaşına düşən həcmi;
И –idxalın həcmi.
7)Xarici ticarət dövriyyəsinin adambaşına düşən həcmi:

$$XTD_a = \frac{XTD}{\partial hali}$$

XTD_a – xarici ticarət dövriyyəsinin adambaşına düşən həcmi;
XTD – xarici ticarət dövriyyəsi.

3.Mal və xidmətlər üzrə beynəlxalq ticarətin aparılması formaları və metodları

Beynəlxalq ticarətin 3 əsas forması:
1. Obyektə görə.
a) Xammal ticarəti;
b) Yanacaq ticarəti;
c) Ərzaq ticarəti;
ç) Yarımfabrikatlar ticarəti;
d) Hazır məhsullar üzrə ticarət (istehsal və qeyri-istehsal təyinatlı);
e) Xidmətlər üzrə ticarət.

2. Beynəlxalq ticarətin subyektləri arasında qarşılıqlı təsirə görə:
a) Ənənəvi ticarət;

MUHASIBAT.AZ

b) İxtisaslaşmış və kooperasiya olunmuş məhsullar üzrə ticarət (uzunmüddətli sazişlər əsasında);
c) Qarşılaşan ticarət (barter, klirinq və s.).

3. Beynəlxalq ticarətin tənzimlənməsi kriteriyalarına görə:
a) Adi;
b) Ayrı-seçkilik səciyyəsi daşıyan;
c) Preferensial;

- Beynəlxalq ticarətin aparılması metodları:
1.Birbaşa;
2.Dolayısı ilə (vasitəçilərin iştirakı),

-Vasitəçilərin növləri:
1. Sadə;
2. Etibar edilən;
3. Komissioner;
4. Konsiqnator;
5. Agentlər;
6. Satış vasitəçiləri;
7. Dilerlər.

- Vasitəçilərin təşkilati formaları:
1. Beynəlxalq birjalar;
2. Beynəlxalq hərraclar;
3. Beynəlxalq torqlar.

4.Xidmətlər üzrə beynəlxalq ticarətin spesifikası

Mallar	Xidmətlər
Hiss edilir	Hiss edilmir
Görünür	Görünmür
Saxlanılır	Saxlanılmır
İstehsalla bağlı deyil	İstehsalla bağılıdır
Malın ixracı-xarici bazarda satış deməkdir	Xidmətin ixracı-ölkənin gömrük ərazəsində ola bilər

Şəkil 34. Mal və xidmətlər arasında fərqli cəhətlər.

MUHASIBAT.AZ

- Xidmətin əsas növləri:

1. Nəqliyyat;
2. Turizm;
3. Rabitə;
4. Tikinti;
5. Sığorta;
6. Maliyyə xidmətləri;
7. Kömpüter və informasiya xidmətləri;
8. Royalti və lisenziya ödənişləri;
9. Sair biznes xidmətləri;
10. Şəxsi və mədəni xidmətlər;
11. Hökumət xidmətləri.

-Dünya bankının təsnifatı:

1) Faktor xidmətləri;
2) Qeyri-faktor xidmətləri.

- İstehlakçıya çatdırılması üsullarına görə:

1) İnvestisiyalarla bağlı olan xidmətlər (bank, mehmanxana və peşəkar xidmətləri);

2) Ticarətlə bağlı olan xidmətlər (nəqliyyat, sığorta);

3) Eyni zamanda həm investisiyalarla, həm də ticarətlə bağlı olan xidmətlər (rabitə, tikinti, kompüter və informasiya xidmətləri, şəxsi və mədəni xidmətlər).

	İstehlakçı yerini dəyişmir	İstehlakçı yerini dəyişir
İstehlakçı yerini dəyişmir	Nəqliyyat, kompüter və informasiya xidmətləri	Turizm, təhsil, səhiyyə
İstehlakçı yerini dəyişir	Birbaşa xarici investisiyalar, işçi qüvvəsinin miqrasiyası	Rezident-firmalar tərəfindən təşkil edilən səyahət (üçüncü ölkələrə)

Şəkil 35. Xidmətlər üzrə beynəlxalq sazişlər.

MUHASIBAT.AZ

- Xidmətlər üzrə beynəlxalq ticarət sazişlərinin yerinə yetrilməsi mexanizmi:

1) Alıcının mobilliyi;

2) Satıcının mobilliyi;

3) Eyni zamanda həm alıcının, həm də satıcının mobilliyi yaxud xidmətin özünün mobil xarakteri.

-Xidmətlər üzrə beynəlxalq ticarətin dövlət tənzimlənməsi:

-Bazara çıxışı tənzimləyən tədbirlər:
Yerli bazarda xarici istehsalçının fəaliyyətini məhdudlaşdıran yaxud qadağan edən ticarət siyasətinin vasitələrindən biri.

Bura aiddir:

1.Xidmət idxalının kvotalaşdırılması;

2.Xarici kompaniyaların yerli bazarda filiallarının yaradılmasına qoyulan məhdudiyyətlər;

3.İstehsal xidmətlərinin hərəkətinin məhdudlaşdırılması;

4.İsehlakçı xidmətlərinin hərəkətinin məhdudlaşdırılması;

-Milli rejimdən istifadənin məhdudlaşdırılması.

MUHASIBAT.AZ

Mövzu IV.3

TEXNOLOGİYA ÜZRƏ BEYNƏLXALQ TİCARƏT

1. «Texnologiya» anlayışı.
2. Beynəlxalq ticarət və texniki tərəqqi.
3. Texnologiyanın ötürülməsi formaları.
4. Beynəlxalq texniki yardım.

1. «Texnologiya» anlayışı

Texnologiya üzrə beynəlxalq mübadilə:
Əvəzsiz olaraq yaxud kommersiya əsasında elmi-texniki nailiyyətlərin dövlətlərarası miqrasiyası

2.Beynəlxalq ticarət və texniki tərəqqi

-Texniki tərəqqi modeli.
1. Neytral texniki tərəqqi;
2. Əməktutumlu texniki tərəqqi;
3. Kapitaltutumlu texniki tərəqqi.

- Texnoloji fərqliliyin dinamik modeli.
Yeni texnologiya müvəqqəti inhisarçı mövqe yaradır;

- Məhsulun həyat sisləsi konsepsiyası.
1. Birinci mərhələ – yeni məhsul mərhələsi;
2. İkinci mərhələ – artım mərhələsi;
3. Üçüncü mərhələ – yetkinlik mərhələsi;
4. Dördüncü mərhələ – durğunluq mərhələsi;
5. Beşinci mərhələ – istehsalın dayanması mərhələsi.

MUHASIBAT.AZ

- Texnologiyanın hüquqi mühafizəsi formaları:
1. Patent;
2. Lisenziya;
3. Kopirayt;
4. Mal markası.

3.Texnologiyaların ötürülməsi formaları

1. Patent sazişləri;
2. Lisenziya sazişləri;
3. «Nou-xau»;
4. İnjinirinq.

Lisenziyaların növləri:
1. Patentləşdirilmiş;
2. Patentləşdirilməmiş;
3. Adi;
4. İstisna;
5. Tam.

Lisenziya ödənişləri:
1. Royalti;
2. Pauşal ödəniş;
3. Mənfəətdə iştirak;
4. Mülkiyyətdə iştirak.

-Ticarətin texnoloji tutumu: Ayrı-ayrı sahələr üzrə məhsul istehsalı və ticarətinin ümumi tədqiqatlara sərf edilmiş məsrəflərin xüsusi çəkisi

4.Beynəlxalq texniki yardım

MUHASIBAT.AZ

Əsas təşkili növləri:
1) Texnoloji qrantlar;
2) Texniki köməyin birgə maliyyələşdirilməsi.

-Texniki yardımın həyata keçirilməsi mexanizmi:
1) İkitərəfli;
2) Çoxtərəfli.

-Texnologiya ötürülməsini məhdudlaşdıran səbəblər:
1) Texnoloji liderlik istəyi;
2)Milli təhlükəsizlik;
3)Beynəlxalq sazişlərin şərtləri.

MUHASIBAT.AZ

Mövzu IV.4

BEYNƏLXALQ TİCARƏT SİYASƏTİ

1.Xarici ticarət siyasətinin əsas formaları.
2. Xarici ticarət siyasətinin əsas vasitələri.
3. Tarif tənzimlənməsi.
4. Xarici ticarətin qeyri-tarif tənzimlənməsi.

1.Xarici ticarət siyasətinin əsas formaları

1.Azad ticarət (liberallaşdırma);
2.Proteksionizm.

- Proteksionizmin əsas növləri:

1.Selektiv proteksionizm – ayrıca götürülmüş bir ölkəyə, yaxud bir məhsula istiqamətlənir;

2.Sahə proteksionizmi – müəyyən bir sahənin xarici rəqabətdən mühafizəsi, məs: aqrar proteksionizm;

3.Kollektiv proteksionizm – ölkələr birliyi tərəfindən birliyə daxil olmayan ölkəyə istiqamətlənir;

4.Gizli proteksionizm – daxili iqtisadi siyasət metodlarından istifadə etməklə həyata keçirilir.

2.Xarici ticarət siyasətinin əsas vasitələri

MUHASIBAT.AZ

Metodlar	Ticarət siyasətinin vasitəsi	Əsasən tənzimləyir	
Tarif	Gömrük rüsumları		İdxal
	Tarif kvotası		İdxal
Qeyri-tarif			
Miqdar	Kvota Lisenziya «Könüllü məhdudlaşdırma»	İxrac İxrac	İdxal İdxal
Gizli	Dövlət alışı Yerli komponentlərin tərkibi barəsində tələb Texniki maneələr Vergi və rüsumlar		İdxal İdxal İdxal İdxal
Maliyyə	Subsidiya Kreditləşdirmə Dempinq	İxrac İxrac İxrac	

Şəkil 36. Ticarət siyasəti vasitələrinin təsnifatı.

Orta tarif (%-lə)	Qadağa	Məhdudlaşdırıcı		Sabit		Açıq		Azad
	<40-100	<25		10-15		>10		0
Miqdar məhdudiyyətləri								
Ticarətin əhatə edilən hissəsi (%-lə)	<40	>25	>10	0-10	10-25	0-25	0-10	0
İntensivlik dərəcəsi	Yüksək	İstənilən	Yüksək	Yüksək	Orta	Aşağı	Orta	0

Şəkil 37. Ticarət siyasəti vasitələrinin xarakteri.

Miqdar məhdudiyyətləri rejimi Tarif rejimi	Açıq	Sabit	Məhdudlaşdırıcı
Açıq	Azad rəqabət	Sabit	Proteksionizm
Sabit	Sabit	Sabit	Proteksionizm
Məhdudlaşdırıcı	Proteksionizm	Proteksionizm	Proteksionizm

Şəkil 38. Bütövlükdə ticarət siyasətinin xarakteri.

MUHASIBAT.AZ

3.Tarif tənzimlənməsi

- Gömrük tarifi: sadə; mürəkkəb; avtonom; avtonom-konvension.

- Gömrük rüsumlarının əsas funksiyaları:

1. Fiskal;
2. Proteksionist;
3. Balanslaşdırma.

Təsnifatın prinsipləri	Gömrük rüsumlarının növləri
1.Alınması üsuluna görə…	Advalor; spesifik; qarışıq;
2.Obyektinə görə	İdxal, ixrac, tranzit;
3.Xarakterinə görə	Mövsümi, antidempinq, kompensasiya;
4.Mənşəyinə görə	Avtonom, konvension, preferensial;
5.Stavkanın tipinə görə	Daimi, dəyişən;
6.Hesablanması üsuluna görə	Nominal; effektiv.

Şəkil 39. Gömrük rüsumlarının təsnifatı.

Əgər	Onda
A=0	$T_e=T_f$
0<A<1	T_e- müstəqil kəmiyyət
$T_n=T_{im}$	$T_e=T_n$
$T_n > T_{im}$	$T_e > T_n$
$T_n < T_{im}$	$T_e < T_n$
T_{im} yüksəlir	T_e aşağı düşür
T_{im} azalır	T_e yüksəlir
T_f yüksəlir	T_e yüksəlir
T_f azalır	T_e azalır

Şəkil 40. Effektiv idxal tarifinin sərhədləri.

MUHASIBAT.AZ

T_e- gömrük mühafizəsinin effektiv səviyyəsi;

T_n –son məhsula qoyulan nominal tarif stavkası;

T_{im} - idxal edilən hissələrə (komponentlərə) qoyulan nominal tarif stavkası;

A – son məhsulun dəyərində idxal edilən komponentlərin payı;

T_f - gömrük mühafizəsinin nominal səviyyəsi.

$$T_e = \frac{T_n - A_x \cdot T_{im}}{1 - A}$$

Effekt		Əks etdirir		İstiqamət /səbəb	
Kiçik ölkə	Böyük ölkə	Kiçik ölkə	Böyük ölkə	Kiçik ölkə	Böyük ölkə
Gəlir	Daxili gəlir	Gəlirlərin yenidən bölgüsü		İstehlakçılardan dövlətə	İstehlakçılardan dövlətə
	Ticarət şəraiti				Xarici malgöndərəndən dövlətə
Son həddə				İstehlakçılardan istehsalçılara	
Mühafizə		İtkilər		Xariclə müqayisədə daxili istehsalın az effekttivliyi	
İstehlak				Daxili istehlakın ixtisarı	

Şəkil 41. İdxal tarifinin iqtisadi effektivliyi.

- İxrac tarifi:

$$P_e = P_d (1 + T_{av});$$

buradan da

$$T_{av} = \frac{P_e - P_d}{P_d}$$

P_d – məhsulun daxili qiyməti;

P_e – ixrac qiyməti;

T_{av} – advalor tarif stavkası.

MUHASIBAT.AZ



Şəkil 42. Tarifin lehinə və əleyhinə olan arqumentlər.

4.Xarici ticarətin qeyri-tarif tənzimlənməsi

